# GÖZÜNƏ YOXUŞLU BİR YOL GÖRÜNƏR



*İLTİMAS SƏMİMİ*
*Azərbaycan Yazıçılar Birliyinin üzvü*
*Prezident mükafaçısı*

## QOYMA TƏK MƏNİ

Yoluma işıq saç mehriban Günəş,
Ərisin qəlbimin acı dərd-səri.
Hər şirin arzuma uğurlu sabah,
İsit ürəyim tək, isit sən Yeri.

Yerdə nə göz yaşı axıdan olsun,
Nə dərd ümmanında batıb boğulan.
Zülmət gecələrdə sıxılır ürək,
Başımın üstündə daima dolan.

Bircə göy üzündə bulud olmasın,
Sənsiz ötüşməsin qoy zaman belə.
Ayımda, ilimdə Günəşdən keçir,
Nisgilli bir söz də gəlməsin dilə.

Təngiyir nəfəsim bulud görəndə,
Bir qara pərdədir göyün üzünə.
Nə günəş görünür, nə ay görünür,
Üfüqlər könlümü çəkir özünə.

Görməsəm göyləri kefim açılmaz,
Dostlar qaşqabaqlı görəcək məni.
Ulu Yaradandan üzülər əlim,
Mehriban Günəşim qoyma tək məni.

İşıq saç yoluma çağlasın ruhum,
Qaranlıq görməyim, zülmət görməyim.
İşıqlı görünsün gözümə cahan,
Səndən ilhamlansın şair ürəyim

Dilimdən çay kimi misralar axar,
Sinəmdə bir ümman sözüm var hələ.
Nə qələm dayanar, nə təbim susar,
Çətin bir də belə bir fürsət gələ.

Fürsətdir, qoy yazım mehriban Günəş,
Qələm götürməyə sonra vaxt olmaz.
Qəhər boğsa məni ilhamda susar,
Nəğmələr yazmaqdan qəlbim yorulmaz.

Görməsəm göyləri kefim açılmaz,
Dostlar qaşqabaqlı görəcək məni.
Ulu Yaradandan üzülər əlim,
Mehriban Günəşim qoyma tək məni.

01.01.2025

## GÖZÜNƏ YOXUŞLU BIR YOL GÖRÜNƏR

Gözünə yoxuşlu bir yol görünər,
Gərək adlayasan yorğun olsan da.
Ömürdə yel kimi ötüşər hədər,
Fürsət əldən gedər sən dayananda.

Qovrulur içində ləng yeriyənlər,
Taleydir, qismətdir gecikmək olmaz.
Açılmaz üzünə uğurlu səhər,
Demə yorulmuşam dincəlim bir az.

Ömrünün hər anı bir sınaq kimi,
Atılan hər addım bir qətiyyətdir.
Gərək qaya kimi, gərək dağ kimi,
Dözəsən, xoş amal, xoş bir niyyətdir.

02.01.2025

## ÜRƏK DƏRD EDİR

Axar sular kimi, axar beləcə,
Gecəyə-gündüzə bölünən zaman.
Xəyala qərq olar ürək hər gecə,
Bir göz qırpımında vaxt ötür yaman.

İlin hər fəsili könül oxşayır,
Baharı ətirli, yayı da isti.
İnsan da özünü bəxtəvər sayır,
Elə bil cənnətdir torpağın üstü.

Payızdan doymayır, nə ürək,nə göz,
Sehr eylə çölləri qışı dümağ qar.
Yaraşır hüsnünə yaraşır hər söz,
Çırpınır ürəyim hələ sözüm var.

Bu ağ varaqlara düzülsün sözüm,
Bənzəsin beləcə dürrə, inciyə.
Heç vaxt qaralmasın ocağım, közüm,
Ağarır saçlarım vaxt deyə-deyə.

Vaxtın caynağında çırpınıram mən,
Necə tələsməyim vaxt ötüb gedir?
Gözümün önündə durur yaş bəzən
Yaşı da özünə ürək dərd edir.

02.01.2025

## MİN İLİN XATİRƏLƏRİ

Sevindim demə
Bir az xoş təbəssüm
Dodağında görünsə
Bilinər hardasa
Qismətinə
Bir damla səadət yazılıb.
Buludlara qarışan
Xatirələrin
Özünə ünvan axtarır.
Ulduzlardan bir şey umma,
Bir-biriylə sayırışmaqdan
Bəsə giriblər.
Hardasa təklənib,
Tənhalıqdan hönkür-hönkür ağlasan
Əlləri qoynunda
Keçmişi xatırlayasan.
Ayağın altında torpaq,
Başın üstə göy,
Xatırında min ilin xatirələri.

02.01.2025

## GÖZDƏN İTƏRDİM

Demə tanış deyilmiş
Nə bu məkan,
Nə bu yol.
Geriyə dönmək olmur,
Lap uşaqlıq illərə dönərdim.
Bir az da xəyal qurub
Mışıl-mışıl yatardım.
Bir tanış səsdən ötrü
Göz yaşlarım süzülür.
Bulud ola bilmədim,
Külək ola bilmədim.
Yoxsa yer üzünə
Əlvida deyib
Gözdən itərdim.

03.01.2025

## ÜMİDSİZ OLMAYIR KÖNÜLDƏN SEVƏN

Üzü-üzə gəldə üzünə baxıb,
Sızlayar ürəyim ötüb keçərəm.
Bir ömür sevməkdən yorulmaz ürək,
Eşqin sınağından, barı, keçərəm.

Bir az hicran olar ötüb keçəcək,
Bir az kövrələrəm gözlərim dolar.
Bir az sənsizliyə sıxılar qəlbim,
Bir az da təkliyim mənə dərd olar.

Qovuşmaq ümidim bitməz, əzizim,
Ötər aylar, illər gözləyərəm mən.
Dərd çəkib, qəm yeyib dözərəm yenə,
Ümidsiz olmayır könüldən sevən.

03.01.2025

## TORPAQ BELƏ EŞİTMƏSİN

Yalançı sözlərlə
Ürəyimi ovundura
Bilmədin.
Darıxıb
Bu yer üzündən
Qaçmaq istədim,
Əngin üfüqlər
Üzümə qapı açmadı.
Şəhərin bir addımlığında dəniz,
Sahilə çırpılan dəli dalğalar,
Əlləri qoynunda,
Gözləri bulud-bulud dolan mən.
Qabarıb çəkilməkdə olan dəniz
Məni anlamaz.
Dənizlə necə danışım,
Qışqırımı,
Yoxsa pıçıltıyla?
Ayağımın altında
Torpaq belə eşitməsin.

04.01.2025

## DOLARDI

Bağışla gecikdim
Önündə diz çöküb
Günahlarımı
Yuya bilmədim.
Sənə bir söz deyəcəkdim,
Tələsirəm, -deyib
Çıxıb getdin.
Elə bil bir az da sıxıldım,
Dünya gözümə
Dar bir quyuya döndü.
Xatırımdə üz-üzə gəldiyimiz günlər,
Məni acladıqca
Ümidsizliyə qərq olub
Gözlərim bulud-bulud dolardı.

05.01.2025

## GÖZƏLDİR HƏYAT

Yüyür, qoy arxanca gələn olmasın,
Buğarlan su kimi buluda çevir.
Bu yeri gəzməkdən yorulur insan,
Ötən günlərini xatırla bir-bir.

Bir az da göylərə yaxın olasan,
Ay da işıq saçsın üstünə belə.
Sayrışan ulduzlar sirdaşın kimi,
Bircə "qəm" sözünü gətirmə dilə.

Yüyür, qoy yetməsin küləkdə sənə,
Ayağın altında bütün kainat.
Dolan göy üzünü milyon il belə,
Əngin səmalarda gözəldir həyat.

05.01.2025

## HƏMƏN YERİŞ OLACAQ

Hanı o xoşbəxtlik
Gözümü açanda
Qarşımda səni görüm.
Gözlərində sevinc,
Dodağında xoş təbəssüm,
Ürəyində çiçəklənən
Sevgi.
Nəfəsin bahar havası tək,
Bütün görüşlər
O ilk görüş kimi sevincli.
Üstündən qırx il ötsə də
Xatirimdə
Həmən gözəl,
Həmən baxış,
Həmən gülüş,
Həmən yeriş olacaq...

05.01.2025

## YERDƏN XİLAS EYLƏ BİZİ İLAHİ

Üzümü göylərə tutub deyirəm,
Yerdən xilas eylə bizi İlahi.
Tökülür torpağa günahsız qanlar,
Silinməz qanların izi İlahi.

Tökülən qanlara tablanır cahan,
Nə qaya tərpənir, nə dağ titrəyir.
Dirənir göylərə insan fəryadı,
Süzülən göz yaşlar Allahım deyir.

Qaralır ocaqlar, dağılır evlər,
Göydən od yağdırır raketlər yaman.
Coşur ürəklərin hikkəsi yenə,
Qanlı savaşlarda məhv olur insan.

Səpilib qəlblərə qisas toxumu,
Nədəndir bu istək anlamaq çətin.
Donur damarlarda qan da qorxudan,
Sonu faciədir sonsuz nifrətin.

Fəqət insan üçün qurtuluş varmı,
Necə xilas olsun bəşər savaşdan?.
Bir ömür düşünsən bir yol tapılmaz,
Bir ümman yaranar axan göz yaşdan.

Sonu barışıqmı, barışıq bitir,
Yenidən cücərir intiqam hissi.
Qisas pöhrələnir şüurda yenə,
İntiqam ölümə aparır bizi.

Nizamı pozulub bu yer üzünün,
Dünya yaranışdan qanlar tökülür.
Zaman da yel kimi ötür beləcə,
İnsan dərd içində boynu bükülür.

Üzümü göylərə tutub deyirəm,
Yerdən xilas eylə bizi İlahi.
Tökülür torpağa günahsız qanlar,
Silinməz qanların izi İlahi.

20.01.2025

